**Bakı Xəbər**. - 2024. - 8-10 iyun. - № 100. - S. 5.

# COP29-un uğurlu startı erməni institutunun "qarnına sancı saldı" - "Dayandırılsın"...

*Akif Nağı: "Lemkin İnstitutu erməni lobbisinin pul kisəsinə bağlıdır, imkanlı ermənilərdən maliyyə alır"*

**İradə Sarıyeva**

**ABŞ-da fəaliyyət göstərən Lemkin İnstitutu, bu erməni təşkilatı Azərbaycana qarşı növbəti şərləmə kampaniyasına başlayıb. Bu ilin noyabrında Bakıda keçiriləcək COP29 (Tərəflərin Konfransı) erməni şovinstlərinin "yatağına qor" doldurub.**

Mənşəyi məlum olmayan Lemkin İnstitutu BMT-ni COP29-nun Azərbaycanda keçirilməsi ilə bağlı qərarını ləğv etməyə çağırıb. Bu barədə erməni mediası məlumat yayıb. Bu üzdəniraq təşkilat

BMT-nin COP29 (BMT-nin illik iqlim dəyişikliyi sammiti) tədbirinin Azərbaycanda keçirilməsi ilə bağlı qərarına qarşı olduğunu bəyan edib.

Yenə qondarma "etnik təmizləmə" əfsanələri, əsassız iddialarla, yenə də köhnə erməni nağılları ilə "süslənən" "bəyanat" təbii ki, kağız parçasından və "ürək bulandırmaqdan" başqa bir şey deyil.

Bunlar elə hesab edirlər ki, uydurma iddiaları və şərləmə kampaniyaları ilə nə isə əldə edə bilərlər. Amma bu dəfə də yanılırlar...

Lemkin İnstitutu da, onun havasına oynayanlar da görürlər ki, Azərbaycanda COP29-a hazırlıq böyük uğurla gedir, dövlətlərin bu tədbirə böyük marağı var, bütün tədbirlər COP29-a hesablanaraq keçirilir və Azərbaycana böyük dividendlər qazandırır, ona görə də qarınlarına qara sancı dolur.

"Onlar da, başqaları da bilməlidir ki, apardıqları kampaniyaların heç bir nəticəsi olmayacaq"

Azad Vətən Partiyasının sədri Akif Nağı "Bakı-Xəbər"ə şərhində bildirdi ki, Lemkin İnstitutu özünün Azərbaycana qarşı mövqeyi ilə tanınır və bu səbəbdən də onlardan başqa şey gözləmək olmaz. "Dünyada beynəlxalq qurumlar, təşkilatlar, dövlətlər var ki, Azərbaycanın uğurları, inkişafı, bölgədə liderə çevrilməsi faktı ilə razılaşa bilmirlər. Burada həm onların müəyyən geostrateji maraqları var ki, bu da Azərbaycanla uyğun gəlmir. Müəyyən dövlətlər var ki, regionda hakimi-mütləq olmaq istəyirlər. Azərbaycan da buna imkan vermir. Onlar artıq Azərbaycanın müqavimətini bir neçə dəfə görüblər, ona görə də hansısa formada Azərbaycanı zəiflətməyə çalışırlar. Çalışırlar ki, istənilən bir məqamdan Azərbaycana qarşı istifadə etsinlər, hansısa bir mövqe ortaya qoysunlar. Lemkin İnstitutu da həmin o mövqedən çıxış edən, dünyada heç bir nüfuzu, çəkisi olmayan formal bir qurumdur. Bəzən görürsən ki, sensasion məlumatlarla ortaya çıxmağa, gündəmə gəlməyə çalışır, amma tanınmır və qəbul olunmur".

A.Nağı qeyd edir ki, bu institut həmişə məntiqsiz və qərəzli mövqe sərgiləyir və dünya da bunu görür. O hesab edir ki, bir tendensiya var və insanlar da, beynəlxalq təşkilatlar da obyektivliyə üstünlük verirlər, amma Lemkin İnstitutunda obyektivlik heç zaman olmayıb. "Bu institutun müəyyən bir maddi marağı var və ona uyğun hərəkət edir. Bu baxımdan, COP29-un Azərbaycanda keçirilməsi qətiyyən bu təşkilatın və onun arxasında dayananların maraqlarına uyğun deyil. Azərbaycan həddindən artıq möhtəşəm bir tədbirə ev sahibliyi etməyə çalışır, çətin bir prosesdir, belə bir tədbiri keçirmək çox məsuliyyətli bir işdir və hər dövlətin buna gücü çatmaz. Bütün dünya bilir ki, COP29-u keçirən ölkənin həm iqtisadi maliyyə gücü, həm təşkilatçılıq qabiliyyəti, təcrübəsi, həm də dünya dövlətlərinin içində nüfuzu, hörməti var. Görürsüz ki, ən aparıcı dövlətlərin rəhbərləri də Bakıda keçiriləcək bu tədbiri dəstəkləyir, kömək etməyə hazır olduqlarını bəyan edirlər. ABŞ prezidenti də bununla bağlı əməkdaşlıq edəcəklərinə dair fikir səsləndirdi. Bilirsiz ki, COP29-un Azərbaycanda keçirilməsindən ABŞ-dakı erməni təşkilatları çox narahatdırlar, Bayden administasiyasına, Konqresə müraciətlər edirlər COP29 Bakıda keçirilməsin. Amma müraciətləri, çağırışları heç bir təsir gücünə malik deyil, çünki dünya bu tədbirin əhəmiyyətini yaxşı başa düşür və Azərbaycanın qabiliyyətini də qəbul edirlər ki, Azərbaycan COP29-u yüksək səviyyədə təşkil edəcək. Bu istiqamətdə hazırlıq prosesi də gedir"-deyə A.Nağı qeyd etdi.

A.Nağı qeyd etdi ki, Prezident də, digər dövlət rəsmiləri də xarici dövlətlərin başçılarını, rəsmilərini bu önəmli tədbirə dəvət edirlər. A.Nağı qeyd etdi ki, burada iqlim dəyişikliyi ilə bağlı çox əhəmiyyətli məsələlər müzakirə eidləcək. "Planetin taleyüklü bir probleminin Bakıda müzakirə edilməsi çox vacibdir. Dostlar buna sevinirlər, düşmənlər isə bunu heç cür həzm edə bilmirlər, uğurumuzu qəbul etmək istəmirlər. Aydındır ki, Lemkin İnstititu erməni lobbisinin pul kisəsinə bağlıdır, imkanlı ermənilərdən maliyyə alır. Ona görə də, bu maliyyələşmənin qarşılığını vermək üçün Azərbaycana qarşı bu cür neqativ addımlar

atmağa məcburdur. Göstərmək istəyir ki, sizin verdiyiniz pul hədər getmir, biz bu kampaniyanı aparırıq. Amma onlar da, başqaları da bilməlidir ki, apardıqları kampaniyaların heç bir nəticəsi olmayacaq, Azərbaycan öz işlərini düzgün qurub və heç bir şərləmə Azərbaycanın bu uğurlu işinə xələl gətirə bilməyəcək”-deyə A.Nağı əlavə etdi.